**Mustafazade A.I.,**
**Bakhshiyeva N.A.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.90-101**
**УДК 349.3**

# Prospects for improving the pension legislation

**Abstract**: It is discussed the prospects for improving the current pension legislation of the Republic of Azerbaijan. The author continues to study the existing problems with retirement and offers improved pension legislation. These proposals are mainly based on the legal basis of the retirement age, the system of non-state guarantees, the minimum wage of retirement pensions to the subsistence minimum, etc.

**Keywords**: law; pension; age; insurance; state; law.

## References

1. *Azerbaycan Respublikasi Prezidentinin 4 noyabr 2014-cu il tarixli 827 nomreli serencami ile tesdiq edilmish "2014-2020-ci illerde Azerbaycan Respublikasinda pensiya teminati sisteminin islahati Konsepsiyasi"* [The concept of reforming the pension system in Azerbaijan Republic for 2014-2020, approved by Presidential Decree No. 827 of November 4, 2014]. Available at: http://www.e-qanun.az/framework/28572 (accessed 15.10.2019)

2. Bayramov Sh.B. *Sosial teminat huquq munasibetleri* [Legal relationship of Social security]. Baku, Adiloglu Publ., 2009, 144 p.

3. *"Emek pensiyalar haqqinda" Azerbaycan Respublikasinin Qanunu* [The Law of Azerbaijan Republic "On Labour Pensions"]. Available at: http://www.e-qanun.az/framework/ 11566 (accessed 15.10.2019)

4. Aliyev M.N. *Sosial teminat huququ.* Derslik [Law of Social security. Textbook]. Baku, Adiloglu Publ., 2007, 464 p.

5. Aliyev M.N. *Azerbaycan Respublikasinda pensiya teminati sisteminin teshekkulu ve inkishafi perspektivleri (huquqi problemler)* [Prospects for the formation and development of the pension system in Azerbaijan Republic (legal problems)]. Baku, BSU Publ., 2003, 432 p.

6. Aliyev M.N. *Yasha gore pensiyalar: muasir veziyyeti, huquq problemleri, inkishaf perspektivleri* [Pensions by age: current status, legal problems, development prospects]. Baku, Baku University Publ., 2003, 242 p.

7. Murshudov R.I. *"Emek pensiyalari haqqinda" Azerbaycan Respublikasi Qanununun elmi ve praktiki kommentariyasi I hisse (1-20 maddeler)* [Scientific and Practical comment to the Law of

[♦] **Mustafazade Ayten Inglab gizi –** Doctor of Juridical Sciences, Professor, Director of the Institute of Law and Human Rights of Azerbaijan National Academy of Sciences, Azerbaijan. E-mail: info@huquq.org.az
**Bakhshiyeva Narmin Anver gizi –** PhD in Law, leading researcher of the Department of "Civil Law, Civil Process and Social Economic Law" of the Institute of Law and Human Rights of Azerbaijan National Academy of Sciences, a lecturer of the Department "Civil Law" of the Baku State University, Azerbaijan. E-mail: info@huquq.org.az

Azerbaijan Republic "On Labour Pensions". Part I (Articles 1-20)]. Baku, Aurora Publ., 2018, 380 p.

8. Andreev V.S. *Pravo sotsial'nogo obespecheniya v SSSR* [The Law of Social Security in the USSR]. Moscow, Yuridecheskaya Literatura Publ., 1987, 306 p.

9. Zakharov M.L., Tuchkova E.G. *Pravo sotsial'nogo obespecheniya v Rossii* [The Law of Social security in Russia]. Moscow, BEK Publ., 2009, 574 p.

10. Zakharov M.L., Tuchkova E.G., Savostyanova V.B. *Pensionnyi kodeks Rossiyiskoyi Federatsii. Proyekt* [Pension Code of Russian Federation. Draft]. Moscow, R. Valent Publ., 2008, 206 p.

11. *Zakon o pensionnom obespechenii ot 13.01.2017 g. Zakon Respubliki Belarus* [The Law on Pension Security of 13.01.2017. The Law of Republic of Belarus]. Available at: http://soczaschita-volkovysk.gov.bu/ index.php/ru/otdel-pensiy-i-posobiy/doku mentasiya/555-закон (accessed 16.10.2019).

12. Machulskaya E.E. *Pravo sotsial'nogo obespecheniya. Perspektivy razvitiya* [The Law of Social Security. Prospects of development]. Moscow, Knizniy mir Publ., 2001, 210 p.

13. Machulskaya E.E. *Pravo sotsial'nogo obespecheniya* [The Law of Social Security]. Moscow, Yurayit Publ., 2012, 504 p.

14. *Pensionniy vozrast* [Pension age]. Available at: https://ru.wikedia.orq/wiki (accessed 15.10.2019)

15. *Pravo sotsial'nogo obespecheniya: uchebnik / V.Sh. Shaikhatdinov* [The Law of Social Security: Texbook/V.Sh. Shaikhatdinov]. Moscow, Yustitsia Publ., 2018, 551 p.

16. Tretyakova G. *Chto mozhet reshit' problemu pensionnogo obespecheniya v Ukraine?* [What can resolve the problem of pension security in Ukraine?]. Available at: http://forinsuer/com/publie/08/02/25/3395 (accessed 17.10.2019)

17. *Tipovye polozheniya v oblasti sotsial'nogo obespecheniya dlya Yuzhnogo Kavkazskogo regiona* [Model Social Security Provisions for the South Caucasus]. Strasbourg, 2002, 58 p.

18. *Federal'niy Zakon RF "O strakhovykh pensiyakh"* [Federal Law of the RF "On insurance pension"]. Novosibirsk, Normatika Publ., 2018, 68 p.

19. Chirkin V.E. *Konstitutsionnoe pravo zarubezhykh stran* [Constitutional law of the foreign countries]. Moscow, Norma Publ., 2010, 608 p.

20. Estel James. *Novye sistemy pensionnogo obespecheniya v starosti: eksperimenty, opyt i nereshennye voprosy* [New systems of pension security in ola age: experiments, experience and non-solved issues]. Available at: http://info.worldbank.orq/etools/docs/libraru/77186/november 2003/readinqs /newsustemsrus.doc (accessed 15.10.2019)

21. URL: https://2019-god.com/tablica-pensionnogo-vozrasta-s-2019-godavrossii (accessed 17.10.2019)

**Mustafazadə A.İ.,**
**Baxşiyeva N.Ə.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.90-101**
**UOT 349.3**

## Pensiya qanunvericiliyinin təkmilləşdirilməsi perspektivləri

**Xülasə:** Azərbaycan Respublikasının qüvvədə olan pensiya qanunvericiliyinin təkmilləşdirilməsi perspektivləri araşdırılır. Müəllif pensiya ilə bağlı mövcud problemləri tədqiq edərək pensiya qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində təkliflər irəl sürür. Həmin təkliflər əsasən pensiya yaşı, qeyri-dövlət təminatı sistemi üçün normativ hüquqi bazanın yaradılması, əmək pensiyasının minimum məbləğinin yaşayış minimumuna çatdırılması və s. ilə bağlıdır.

**Açar sözlər:** qanun; pensiya; yaş; sığorta; dövlət; hüquq.

İnsanın əsas sosial-iqtisadi hüquqları sistemində sosial təminat hüququ Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsində oz əksini tapıb. Sosial təminat hüquqları sırasında isə pensiya hüququ xüsusi yer tutur. Hüquq ədəbiyyatında qeyd edildiyi kimi, pensiya hüququ sosial təminat hüququnun nüvəsini təşkil edir [8, s. 31]. Qüvvədə olan pensiya qanunvericiliyi ilə müəyyən olunmuş şərtlər daxilində cəmiyyət üzvlərinin böyük əksəriyyəti (vətəndaşlar, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər) pensiya hüquq münasibətlərinin real və ya potensial işirakçılarıdır [2, s. 114].

Pensiya təminatı şəxsin əmək qabiliyyətinin itirilməsinə, müəyyən yaş həddinə çatmasına və ailə başçısını itirməsinə görə verilir. Məhz bununla da başqa şəxsin hesabına yaşamaq üçün ailə üzvlərinin aldığı aliment xarakterli təminat növündən fərqlənir. Onların yeganə ümumi cəhəti hər ikisinin vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilməsində ifadə olunur.

Müxtəlif xarici ölkələrin pensiya təminatı sisteminin tədqiq edilməsi belə bir nəticəyə gəlməyə imkan verirki, ümumiyyətlə, dövlətlərin böyük əksəriyyətində (dünyanın 209 dövlətindən 201-də) sosial həmrəylik prinsipinə əsaslanan kollektiv-bölüşdürücü xarakterli pensiya təminatı sistemi fəaliyyət göstərir. Bu sistemin mahiyyəti keçmiş, indiki və gələcək işçilərin, habelə uzun ömürlü işçilərin və pensiya yaşına çatmadan vəfat edəcəyi ehtimal olunanların həmrəyliyində (nəsillərin həmrəyliyində) ifadə olunur. Həmin sistemə görə, işləyən vətəndaşların hesabına məcburi pensiya sığortası haqları şəklində ödənilən bütün vəsaitlər sığorta stajı (sığorta haqlarının ödənilməsi davamiyyəti) və həmin haqların tutulduğu əmək haqqının səviyyəsi nəzərə alınmaqla, pensiyaçılar arasında bölünür. Kollektiv-bölüşdürücü sistem mümkün pensiya risklərindən etibarlı müdafiə vasitəsidir və bu sistem üzrə məcburi sosial sığorta fondlarına sığorta haqlarını ödəyən sığorta olunanların sayı həmişə bu vəsaitlərin hesabına maddi yardım, yəni pensiya alanların

♦ **Mustafazadə Aytən İnqlab qızı -** hüquq elmləri doktoru, professor, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun direktoru, Azərbaycan. E-mail: info@huquq.org.az
**Baxşiyeva Nərmin Ənvər qızı -** hüquq üzrə fəlsəfə doktoru, AMEA Hüquq və İnsan Haqları İnstitutunun Mülki hüquq, mülki proses və sosial-iqtisadi hüquqlar şöbəsinin aparıcı elmi işçisi, Bakı Dövlət Universitetinin "Mülki hüquq" kafedrasının müəllimi, Azərbaycan. E-mail: info@huquq.org.az

sayından xeyli çox (müasir dövrdə, orta hesabla, iki dəfə) olur. Bu zaman, pensiya təminatına ictimai istehsalla məşğul olan əmək qabiliyyətli nəslin əməyi, gəlirləri və pensiyaların ödənilməsi üçün onların gəlirindən tutulan sığorta haqları ilə zəmanət verilir. Kollektiv-bölüşdürücü sistemlə yanaşı, dünyada fərdi yığım prinsipinə əsaslanan pensiya təminatı sistemi (Çilidə, Peruda, Argentinada, Kolumbiyada, Boliviyada, Meksikada və s.) və son dövrlərdə formalaşmaqda olan qarışıq yığım-həmrəylik pensiya təminatı sistemi (əsasən, Mərkəzi və Şərqi Avropa dövlətlərində) fəaliyyət göstərsədə, həmin ölkələrdə kollektiv-bölüşdürücü xarakterli dövlət pensiya sistemi saxlanılmışdır [5, s. 86].

Dünyada mövcud olan pensiya təminatı sistemlərinin müsbət və mənfi cəhətləri təhlil edilməklə, dövlət müstəqilliyini əldə etmiş və bazar iqtisadiyyatı münasibətlərinə keçmiş respublikamızda mövcud demoqrafik vəziyyət nəzərə alınaraq, inkişaf etmiş ölkələrdə uzun müddət səmərəli fəaliyyət göstərən sosial həmrəylik prinsipinə əsaslanan kollektiv-bölüşdürücü sistemin tətbiq edilməsi məqsədə müvafiqdir. Fərdi yığım prinsipinə əsaslanan pensiya təminatı sisteminin isə əlavə (qeyri-dövlət) pensiya təminatı çərçivəsində tətbiq edilməsi daha düzgün olardı.

Çox geniş və kütləvi təminat növükimi xarakterizə edilən pensiya sistemində aparılan islahatlar yaşından və sosial statusundan asılı olmayaraq, bütün vətəndaşlara aiddir, çünki hər bir şəxs əmək fəaliyyətinin sona çatmasından sonra onu nələrin gözləməsində və qocalıq dövründə sosial təhlükəsizliyinin təminatına maraqlıdır. Pensiya təminatı sahəsində aparılan islahatları əsas məqsədi maliyyə probleminin qismən həll edilməsindən, bir sıra hallarda isə qanunvericilikdə mövcud olan ədalətsizlikləri aradan qaldırmaqdan ibarətdir. Bu sahədə qarşıya qoyulan məsələlər müxtəlif formalarda həll edilir. Dövlət bu məsələləri pensiya almaq hüququ verən meyarları, sığorta haqlarının məbləğini, pensiyaların hesablanması, ödənişi, təyin olunma qaydalarını dəyişməklə və ya bir sıra digər tədbirləri həyata keçirməklə həll edir. Əksər hallarda bu cür islahatlar dövlət pensiya sistemində mövcud olan problemləri həll etməyə yetərli olmur, lakin maliyyə böhranının müəyyən müddətə aradan qaldırılmasına və ya onun təsirinin azaldılmasına imkan verir.

Pensiya təminatında nəsillərin həmrəyliyi prinsipinin tətbiq edildiyi ölkələrdə, o cümlədən ölkəmizdə pensiyanın maliyyələşdirilməsi hazırda işləyənlərin ödədikləri məcburi dövlət sosial sığorta haqqı hesabına həyata keçirilir. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar həmrəylik sistemində yığım elementləri də tətbiq edilməyə və ölkənin pensiya təminatı sisteminin qarışıq formada qurulması prosesinə başlanılmışdır.Eyni zamanda bu sahədə aparılan islahatları daha da dərinləşdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2008-ci il ,04 noyabr 2014-cü il tarixli 111 və 827 nömrəli Sərəncamları ilə "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı", "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası" (bundan sonra-Konsepsiya) təsdiq edilmişdir. Konsepsiyada pensiya təminatı sisteminin bir sıra göstəricilərinin tənzimlənməsində mövcud olan problemlər göstərilmiş, pensiya təminatı sisteminin uzunmüddətli dövr üzrə maliyyə dayanıqlığına nail olunması, pensiyanın baza hissəsinn restrukturizasiyası, sığorta haqqı normativinin təkmilləşdirilməsi, pensiya sisteminin ödəmə potensialının gücləndirilməsi, sığorta prinsiplərinə uyğun olmayan, yəni güzəştli və xüsusi şərtlərlə, habelə erkən pensiyaya çıxma hallarında pensiya məbləği ilə ödənilən sığorta haqqı arasında mütənasibliyin təmin edilməsi, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün aktual təhlillərə əsaslanan mexanizmlərin formalaşdırılması, pensiyaların könüllü yığım komponentinin fəallaşdırılması və qeyri-dövlət pensiya institutlarının

inkişaf etdirilməsi ölkədə aparılan pensiya islahatının əsas istiqamətləri kimi müəyyən olunmuşdur [1].

Konsepsiyanın 7.1.2.4-cü bəndində 2014-2015-ci illərdə könüllü sosial sığorta haqqının ödənilməsi şərtlərinin müəyyənləşdirilməsi, 7.3-cü bəndində 2015-ci ildə pensiyaların könüllü yığım komponentinin fəallaşdırılması və qeyri-dövlət pensiya institutlarının formalaşdırılması üzrə təkliflərin hazırlanması, 7.4-cü bəndində 2015-2017-ci illərdə qeyri-dövlət pensiya fondlarının yaradılmasını və fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın yaradılması nəzərdə tutulmuşdur [1]. Həmin tədbirlərin yerinə yetirilməsi nəticəsində ölkəmizdə də əhalinin sosial müdafiəsində önəmli yeri olan qeyri-dövlət pensiya institutunun fəaliyyəti tətbiq ediləcəkdir. Lakin pensiyanın yığım hissəsinin formalaşması üçün hələlik qanunvericilik bazası işlənib hazırlanmadığına, qeyri-dövlət pensiya fondları yaradılmadığına görə bu maddə faktiki olaraq tətbiq olunmur.

"Əmək pensiyaları haqqında"Qanunun 1.0.10-cu maddəsi ilə müvafiq olaraq fərdi hesabın sığorta hissəsində qeydə alınan və fərdi hesabın yığım hissəsində toplanan vəsaitlərin məbləği pensiya kapitalı kimi xarakterizə olunur [3]. Ödənilən məcburi dövlət sosial sığorta haqlarının 1 iyul 2017-ci ilədək 50 %-i, həmin tarixdən isə sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 90%-i fərdi hesabın sığorta hissəsində qeydə alınır. Həm də sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 90%-nin nəzərə alınması yalnız həmin tarixdən sonra ilk dəfə pensiya təyin olunanlara və istifadə olunmamış pensiya kapitalına əsasən pensiyanın məbləğinə yenidən baxıldıqda tətbiq olunur.

Qeyd etmək lazımdır ki, hazırda əksər ölkələrdə pensiya yaşının artırılması tendensiyası mövcuddur. Hüquqşünas alimlər pensiya yaşının birdəfəyə deyil, əhalini qabaqcadan xəbərdar etməklə tədricən, məsələn, hər il 3-4 ay artırılmasını daha məqsədəuyğun hesab edirlər. Bununla yanaşı həmin müddətdə yeni iş yerlərinin, xüsusilə yaşlı vətəndaşların əmək fəaliyyətinə imkan verən şəraitin yaradılması, onların artırılmış pensiya yaşına çatmadan işdən azad olunmasına məhdudiyyətin tətbiq edilməsi, müəyyən şəraitdə onların vaxtından əvvəl pensiyaya çıxmasının müəyyən edilməsi üçün tədbirlər həyata keçirilməsi zəruridir [6, s. 91; 10, s 156-157]. Bu baxımdan ölkəmizdə pensiya təyin edilməsi üçün yaş həddinin mərhələlər üzrə artırılması müsbət qiymətləndirilə bilər.

Beynəlxalq Əmək Təşkilatının "Sosial təminatın minimum normaları haqqında" 102 nömrəli Konvensiyasında normal pensiya yaşı istər kişilər, istərsə də qadınlar üçün 65 yaş hesab olunur [13, s. 191]. Avropa Şurasının əməkdaşları professor Denni Peters və Pol Şukens tərəfindən uzun illər bundan əvvəl (2002-ci ildə) hazırlanmış "Cənubi Qafqaz regionu üçün sosial təminat sahəsində Nümunəvi Əsasnamə"nin layihəsində Avropa Sosial Təminat Məcəlləsinə uyğun olaraq ölkəmizdə pensiya yaşının 65 yaşa çatdırılması təklif olunur [17, s. 19]. Prof. M.N. Əliyev göstərir ki, pensiya yaşı həm kişilər, həm də qa-dınlar üçün 65 yaş müəyyən edilmiş Almaniyada orta ömürlük səviyyəsi kişilər üçün 79 yaş, qadınlar üçün 83,5 yaş həddindədir. Buna görə də Almaniya üçün 65 yaş normal pensiya yaşı hesab edilməlidir. Respublikamızda isə əhalinin çox erkən qocalması və əmək qabiliyyətlərinin itirilməsi baxımından pensiya yaş həddinin 62 yaşdan da yuxarı artırılması məqsədəmüvafiq deyildir [6, s. 72]. Pensiya yaşının ən aşağı həddə müəyyən edildiyi Rusiya Federasiyasının bir çox tədqiqatçıları göstərirlər ki, bəli, Rusiyada pensiya yaşının tipik Avropa standartlarına uyğun olaraq (kişi və qadınlar üçün 65 yaş) müəyyən edilməsi pensiyaçıların sayının və pensiya ödənişi üçün xərclərin, bütövlükdə sistemin maliyyə yükünün iki dəfə azaldılmasına səbəb olacaqdır. Lakin yalnız pensiya yükünün və xərclərinin azaldılması naminə pensiya yaşının

artırılması hüquqi və sosial dövlətin məqsədi ola bilməz.Bunun üçün ilk növbədə insanların orta ömür müddətinin, əmək qabiliyyətinin və yaşlı dövrdə real çalışmaq imkanlarının artırılmasına nail olmaq lazımdır [10, s. 157]. Hazırda pensiya təyinatı üçün yaş həddinin ən aşağı səviyyədə müəyyən edildiyi Rusiya Federasiyasında onun artırılması üçün geniş müzakirələr aparılıq.

Həmin ölkədə 2019-cu ildən etibarən pensiya təyin olunması üçün yaş həddinin mərhələlərlə qadınlarda 60 yaşa, kişilərdə isə 65 yaşa çatdırılması planlaşdırılır [21].

Formalaşmış olan beynəlxalq təcrübəyə əsasən inkişaf etmiş ölkələrdə pensiya təyin edilməsi üçün yaş həddi müəyyən edilərkən pensiyada olma müddəti, yəni gözlənilən ödəniş müddəti 12 il nəzərə alınır. Hazırda isə əksər inkişaf etmiş ölkələrdə (məsələn, Almaniyada) pensiyada olma müddəti orta hesabla 13-18 ili əhatə edir. Buna görə də həmin ölkədə pensiya yaşının mərhələlərlə artırılaraq 67 yaşa çatdırılmasının müəyyən edilməsi təbii qarşılanmalıdır.

Ölkəmizdə pensiya yaşının müəyyən edilməsi əsaslarını onunla istər sosial-iqtisadi inkişaf, istərsə də demoqrafik vəziyyət baxımından daha yaxın olan ölkələrlə, başqa sözlə desək, keçmiş SSRİ məkanına daxil olan ölkələrlə müqayisə etmək istərdik. Həmin ölkələrdən yalnız Pribaltika Respublikalarında bizim ölkəmizdə olduğu kimi, qadın və kişilərin pensiya yaşının mərhələlərlə 65 yaşa çatdırılması nəzərdə tutulur. Gürcüstan Respublikasında kişilərin pensiya təyin edilməsi üçün yaş həddi 65 yaşdır. Digər ölkələrin əksəriyyətində isə kişi və qadınların pensiya təyin edilməsi üçün yaş həddi əsasən 63 yaş müəyyən edilmişdir. Bu baxımdan tədqiqatçı alim R.İ. Mürşüdovla razılaşaraq [7, s. 95] hesab edirik ki, respublikamızda pensiya təyin edilməsi üçün yaş həddinin 63 yaşdan artıq müəyyən edilməsi ziddiyyətli xarakter daşıyır.

Yaşa görə pensiya təyinatının isə başlıca tələbi adından da göründüyü kimi, şəxsin müəyyən yaş həddinə çatması hesab olunur. Yaşından asılı olmayaraq yaşa görə pensiya təyin edilməsi isə qanunvericiliyin ziddiyyətli məqamı hesab edilir. Göstərmək lazımdır ki, “Sığorta pensiyaları haqqında” Rusiya Federasiyası Qanununun 30-33-ci maddələri əmək fəaliyyəti ilə əlaqədar olaraq ayrı-ayrı kateqoriya şəxslərə onların yaşından asılı olmayaraq pensiya hüququnu tanıyır [18, s. 43]. Həmin Qanuna əsasən bu növ pensiyalar da qocalığa görə pensiya hesab olunur. Belə ki, həmin Qanunda da pensiyanın növləri sırasında xidnət illərinə görə pensiyalar nəzərdə tutulmamışdır. Lakin mütəxəssislər hesab edirlər ki, bu pensiyaların qocalığa görə adlandırılması onun mahiyyətinə uyğun deyildir və böyük çətinliklərlə təqdim olunur. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 27 mart 2014-cü cü il tarixli qərarında göstərildiyi kimi, xidmət illərinə görə pensiyanın məqsədi əmək qabiliyyətinin azalması və ya itirilməsi ilə əlaqədar şəxsi öz əvvəlki işini davam etdirmək zərurətindən azad etməkdir. Məhz bu baxımdan xidmət illərinə görə pensiyanın təyin edilməsi üçün fərdin müəyyən yaş həddinə çatması faktı hüquqi əhəmiyyət kəsb etmir. Fikrimizcə, yuxarıda qeyd edildiyi kimi, bu ziddiyyət xidmət illərinə görə pensiyaların bərpa olunması ilə aradan qaldırıla bilər.

Pensiyanın yığım hissəsinin isə 1 iyul 2017-ci ildən etibarən könüllü sosial sığorta haqları əsasında toplanması nəzərdə tutulur. Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsində isə dövlətin könüllü sosial sığortanın inkişafı üçün imkanlar yaratması bəyan edilir. Lakin hələlik könüllü sosial sığorta haqlarına əsaslanan pensiya təminatının qanunvericilik bazası yaradılmamışdır. Müvafiq qanunvericilik bazası yaradıldıqdan və bununla əlaqədar təşkilatii tədbirlər həyata keçirildikdən sonra ölkəmizdə könüllü sığorta haqlarına əsaslanan qeyri-dövlət pensiya təminatı tətbiq ediləcəkdir. Fikrimizcə, könüllü sığorta haqlarına əsaslanan qeyri-dövlət pensiya təminatı bu Qanunun predmeti deyildir. Buna görə də yığım pensiyası ilə əlaqədar olan normaların bu Qanunun mətnindən çıxarılması daha məqsədəuyğun olardı. Bir çox ölkələrin, o cümlədən Rusiya

Federasiyasının qanunvericiliyində də məcburi və könüllü sığorta haqlarına əsaslanan pensiyalar ayrı-ayrı qanunlarla tənzimlənir [15, s. 109].

Müxtəlif pensiyaya hüququ olan şəxslərə öz arzuları ilə yalnız bir pensiyanın təyin edilməsi qaydası bir pensiya növündən digər pensiya növünə keçərkən də qismən saxlanılır. Belə ki, Qanunun 34-cü maddəsinə əsasən pensiyaçının yaşa görə pensiya növündən əlilliyə görə pensiya növünə keçirilmə istisna olmaqla, pensiyanın bir növündən başqa növünə keçmə hüququ vardır. Göründüyü kimi, Qanunun 34-cü maddəsi yaşa görə pensiyaçının əlilliyə görə pensiyaya keçmə hüququnu tanımır. Bu isə Qanunun 5.1-ci maddəsində müəyyən olunan ümumi qayda ilə, eləcə də qazanılmış sosial təminat hüquqlarının realizə olunmasına maneə yaratmaqla Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsi ilə ziddiyyət təşkil edir. Qeyd etmək istərdik ki, "Sığorta pensiyaları haqqında" Rusiya Federasiyasının [18, s. 47], "Pensiya təminatı haqqında" Belarus Respublikası Qanunlarının 6-cı maddələrində də yaşa görə pensiya növündən əlilliyə görə pensiya növünə keçmıəni qadağan edən hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır [11]. Bu baxımdan yaşa görə pensiyadan əlilliyə görə pensiya növünə keçidin qadağan edilməsi istər ölkə konstitusiyasına, istərsə də Qanunun 5.1-ci maddəsinə ziddir. Buna görə də həmin qadağanın ləğv edilməsi məqsədəmüvafiq olardı.

"Əmək pensiyaları haqqında" Qanunun 9.1-ci maddəsinə edilmiş dəyişikliyə əsasən 1 iyul 2017-ci ildən axırıncı iş yerindən asılı olmayaraq incəsənətin xüsusi sahələrində çalışanlara güzəştli şərtlərlə yaşa görə pensiya aşağıdakı şərtlər əsasında təyin olunur:

- kişilər 60, qadınlar 55 yaşına çatmalıdırlar;
- kişilərin 25 il, qadınların 20 il sığorta stajı olmalıdır;
- incəsənətin xüsusi sahələrində (istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan siyahısı üzrə kişilər 12 il 6 ay, qadınlar isə 10 il çalışmalıdırlar;
- fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı pensiyanın minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməlidir. Pensiyanın minimum məbləği isə, 01 yanvar 2018-ci ildən 116,27 manata bərabərdir.

Beləliklə, güzəştli şərtlərlə yaşa görə pensiya təyin edilməsi üçün Qanunun 9.1-ci maddəsində nəzərdə tutulan bütün dörd şərtə əməl edilməlidir. Həm də pensiya hüququ müəyyən edilərkən şəxsin axırıncı iş yeri hüquqi əhəmiyyət daşımır.

Qeyd etmək istərdik ki, ümumi əsaslarla, eləcə də çoxuşaqlı qadınların və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağı 8 yaşınadək tərbiyə etmiş qadınların yaşa görə pensiya təminatından fərqli olaraq əməyin xüsusi şəraiti ilə (eləcədə incəsənətin xüsusi sahələrində) əlaqədar güzəştli pensiya təminatında pensiya təyinatı üçün tələb olunan yaş həddi mərhələlər üzrə deyil, birbaşa artırılmışdır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 01 dekabr 2010-cu il tarixli qərarında qeyd edildiyi kimi, qanunverici pensiyaların növlərinin, onların hesablanmasının, təyin və əldə edilməsinin, habelə bir sıra mühüm əhəmiyyət kəsb edən obyektiv hallardan asılı olaraq bəzi kateqoriya şəxslərə güzəştli şərtlərlə pensiya hüququ verilməsinin əsas-larını müəyyən etməkdə müstəqildir (sərbəstdir). Lakin bütün hallarda belə tənzimləmə bərabərlik hüququna, o cümlədən Konstitusiyaya zidd olmaması tələblərinə uyğun həyata keçirilməlidir. Bu mənada qanunvericidən hər hansı hüquq münasibətlərinin, o cümlədən sosial təminat hüquq münasibətlərinin tənzimlənməsində hüquqi müəyyənlik prinsipinə əməl etməsi tələb olunur.

Bu baxımdan hesab edirik ki, əməyin xüsusi şəraiti ilə (eləcədə incəsənətin xüsusi sahələrində) əlaqədar güzəştli pensiya təminatı alan şəxslərində pensiya təyinatı üçün tələb olunan

yaş həddinin digər kateqoriya səxslərdə olduğu kimi ildə 6 ay olmaq şərti ilə artırılması məqsədəmüvafiq olardı.

"Əmək pensiyaları haqqında" Qanunun 9.1-ci maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir ("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 6 mart 2006-cı il tarixli 377 nömrəli Fərmanı). Azərbaycan Respubikası Nazirlər Kabinetinin 23 yanvar 2007-ci il tarixli 12 nömrəli qərarı ilə Siyahı təsdiq edilmişdir. 35 bölmədən ibarət olan həmin Siyahının 33-cü bölməsi incəsənətin xüsusi sahələrinə həsr edilmişdir. İncəsənətin xüsusi sahələrində çalışan balet artistləri,peşəkar bədii kollektivlərdə rəqs nömrələrinin ifaçı artistləri, mimika və jest teatrlarının artistləriopera və balet teatrlarının, musiqi və musiqi-dram teatrlarının, konsert təşkilatlarının, teleradio verilişlərinin vokalçı-artistləri (solistləri), kinoaktrisalar, peşəkar bədii kollektivlərin xor artistləri, kinoaktyorlar, kinorejissorlar və şəxslər Qanunun 9.1-ci maddəsinə uyğun olaraq kişilər 60, qadınlar 55 yaşına çatdıqda pensiya almaq hüququna malikdirlər. Əvvəlki qanunvericilikdə, yəni 1956-ci il və 1992-ci il qanunlarında bu kateqoriyadan olan şəxslər üçün qadinlar 20 il, kişilər isə 25 il xidmət illərinə görə pensiyalar təyin edilirdi. Hesab edilirdi ki, incəsənətin xüsusi sahələrində çalışan balet artistləri,peşəkar bədii kollektivlərdə rəqs nömrələrinin ifaçı artistləri və s. şəxslər göstərilən müddət xidmət etdikdən sonra əmək qabiliyyətsiz şəxslər kateqoriyasına keçirlər. Yeni pensiya qanunvericiyi baxımından balerina işləyən qadın 55 yaşında pensiyaya çıxa bilər. Lakin faktiki olaraq bu kimi vəzifələrdə işləyənlərin 50 yaşdan sonra cətin partiyaları ifa etmələri mümkünsüzdür. Əvvəlki qanunvericilikdən fərqli olaraq yeni qanun pensiyaların növləri sırasında xidmət illərinə görə pensiyalar göstərilməmişdir. Hüquq ədəbiyyatında pensiyanın bu növü ilə əlaqədar müxtəlif fikirlər mövcuddur. Belə ki, V.S.Andreyev göstərirdi ki, bu pensiyalar peşəsi ilə əlaqədar fiziki cəhətdən çətinliklərlə müşayiət olunan şəxslər kateqoriyaları üçün (məsələn, akrobatlar, balet artistləri) maddi təminat formasıdır [21]. M.L.Zaxarov və E.Q.Tuçkovaya görə isə xidmət illərinə görə pensiyaların tətbiq edilməsi başlıca olaraq müəyyən fəaliyyətin və xüsusi xidmət sahələrinin xüsusiyyətləri ilə izah olunur. Gərgin və məsuliyyətli iş uzun müddət yerinə yetirildikdən sonra, onun yerinə yetirilməsi müxtəlif səbəblərdən, məsələn, adi yaş dəyişikliklərinə görə, bir çox illər ərzində formalaşan psixioloji və emosional ağırlığa görə və s. həmişə mümkün olmur. Xidmət illərinə görə pensiyaların məqsədi belə vətəndaşları öz əvvəlki işini davam etdirmək zərurətindən azad etmək, eyni zamanda, bir qayda olaraq başqa aşağı maaşlı işə keçməklə və ya əmək fəaliyyətinə xitam verməklə əlaqədar itirilmiş əmək haqqını kompensasiya etməkdir [9, s. 292-293].

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 27 mart 2014-cü cü il tarixli qərarında göstərildiyi kimi, xidmət illərinə görə pensiyanın məqsədi əmək qabiliyyətinin azalması və ya itirilməsi ilə əlaqədar şəxsi öz əvvəlki işini davam etdirmək zərurətindən azad etməkdir. Məhz bu baxımdan xidmət illərinə görə pensiyanın təyin edilməsi üçün fərdin müəyyən yaş həddinə çatması faktı hüquqi əhəmiyyət kəsb etmir. Fikrimizcə, yuxarıda qeyd edildiyi kimi, bu ziddiyyət xidmət illərinə görə pensiyaların bərpa olunması ilə aradan qaldırıla bilər. Bütün bunlara əsaslanaraq hesab edirik ki,pensiya qanunvericiliyində incəsənətin xüsusi sahələrində çalışan balet artistləri,peşəkar bədii kollektivlərdə rəqs nömrələrinin ifaçı artistləri və s. bu kateqoriyadan olan şəxslər üçün qadınlar 20, kişilər isə 25 il xidmət illərinə malik olduqda yaşından asılı olaraq xidmət illərinə görə pensiya almaq hüququ təsbit edilməlidir.

Beləliklə, bu maqalədə pensiya qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində irəli sürulən təklifləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

1. Respublikamızda əhalinin çox erkən qocalması və əmək qabiliyyətlərinin itirilməsi baxımından pensiya yaş həddinin 63 yaşdan artıq müəyyən edilməsi ziddiyyətli xarakter daşıyır və məqsədəmüvafiq deyil.

2. Könüllü sığorta haqlarına əsaslanan qeyri-dövlət pensiya təminatı ayrıca qanun qəbul edilməli və bununla bağlı normalar "Əmək pensiyaları haqqında" Qanunun mətnindən çıxarılmalıdır. Eyni zamanda qeyri-dövlət pensiya institutlarının formalaşdırılması üçün normativ hüquqi aktlar qəbul edilməli və qeyri-dövlət pensiya fondları yaradılmalıdır.

3. Pensiya qanunvericiliyində yaş və ya xidmət illəri ilə bağlı yaranmış ziddiyyətlərin qaldırılılması üçün xidmət illərinə görə pensiyaların bərpa olunması təklif edilir.

4. "Əmək pensiyaları haqqında" Qanunun 34-cü maddəsində təsbit edilmiş pensiyaçının yaşa görə pensiya növündən əlilliyə görə pensiya növünə keçirilməsini qadağan edən həmin Qanunun 5.1-ci maddəsində müəyyən olunan ümumi qayda ilə, eləcə də qazanılmış sosial təminat hüquqlarının realizə olunmasına maneə yaratmaqla Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsi ilə ziddiyyət təşkil etdiyi üçün göstərilən qadağanın ləğv edilməsi məqsədəmüvafiq olardı.

5. Hesab edirik ki, hüququbərabərlik və hüquqi müəyyənlik prinsipi baxımından əməyin xüsusi şəraiti ilə (eləcədə incəsənətin xüsusi sahələrində) əlaqədar güzəştli pensiya təminatı alan şəxslərin pensiya təyinatı üçün tələb olunan yaş həddinin digər kateqoriya səxslərdə olduğu kimi ildə 6 ay olmaq şərti ilə artırılması məqsədəmüvafiq olardı.

6. Hesab edirik ki, pensiya qanunvericiliyində incəsənətin xüsusi sahələrində çalışan balet artistləri,peşəkar bədii kollektivlərdə rəqs nömrələrinin ifaçı artistləri və s. bu kateqoriyadan olan şəxslər üçün qadınlar 20, kişilər isə 25 il xidmət illərinə malik olduqda yaşından asılı olaraq xidmət illərinə görə pensiya almaq hüququ təsbit edilməlidir. Ona görə ki, xidmət illərinə görə pensiyanın məqsədi əmək qabiliyyətinin azalması və ya itirilməsi ilə əlaqədar şəxsi öz əvvəlki işini davam etdirmək zərurətindən azad etməkdir. Məhz bu baxımdan xidmət illərinə görə pensiyanın təyin edilməsi üçün fərdin müəyyən yaş həddinə çatması faktı hüquqi əhəmiyyət kəsb etmir. Fikrimizcə, ziddiyyət xidmət illərinə görə pensiyaların bərpa olunması ilə aradan qaldırıla bilər.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikası Prezidentinin 4 noyabr 2014-cü il tarixli 827 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası". [Elektron mənbə]. URL: http://www.e-qanun.az/framework/28572 (müraciətin tarixi: 15.10.2019)
2. Bayramov Ş.B. Sosial təminat hüquq münasibətləri. - Bakı, Adiloğlu, 2009. - 144 s.
3. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanunu [Elektron mənbə]. URL: http://www.e-qanun.az/framework/11566 (müraciətin tarixi: 15.10.2019)
4. Əliyev M.N. Sosial təminat hüququ. Dərslik. - Bakı, Adiloğlu, 2007. - 464 s.
5. Əliyev M.N. Azərbaycan Respublikasında pensiya təminatı sisteminin təşəkkülü və inkişaf perspektivləri (hüquqi problemlər). - Bakı: Bakı Universiteti nəşriyyatı, 2003. - 432 s.
6. Əliyev M.N. Yaşa görə pensiyalar: müasir vəziyyəti, hüquqi problemləri, inkişaf perspektivləri. - Bakı, Bakı Universiteti, 2003. - 242 s.
7. Mürşüdov R.İ. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun elmi və praktiki kommentariyası I hissə (1-20-ci maddələr). - Bakı, Avrora, 2018. - 380 s.

8. Андреев В.С. Право социального обеспечения в СССР. - М.: Юридическая литература, 1987. - 306 с.

9. Захаров М.Л., Тучкова Э.Г. Право социального обеспечения в России. - М.: БЕК, 2009. - 574 с.

10. Захаров М.Л., Тучкова Э.Г, Савостьянова В.Б. Пенсионный кодекс Российской Федерации. Проект. - М.: Р. Валент, 2008. - 206 с.

11. Закон о пенсионном обеспечении от 13 января 2017 года. Закон Республики Беларусь. [Электронный ресурс]. Режим доступа: http://soczaschita-volkovysk.gov.bu/ index.php/ru/otdel-pensiy-i-posobiy/doku mentasiya/555-закон (дата обращения: 16.10.2019)

12. Мачульская Е.Е. Право социального обеспечения. Перспективы развития. - М.: Книжный мир, 2001. - 210 с.

13. Мачульская Е.Е. Право социального обеспечения. - М.: Юрайт, 2012. - 504 с.

14. Пенсионный возраст [Электронный ресурс]. Режим доступа: https://ru.wikedia.orq/wiki (дата обращения: 15.10.2019)

15. Право социального обеспечения: учебник / В.Ш. Шайхатдинов. - М.: Юстиция, 2018. - 551 с.

16. Третьякова Г. Что может решить проблему пенсионного обеспечения в Украине? [Электронный ресурс]. Режим доступа: http://forinsuer/com/publie/08/02/25/3395 (дата обращения: 17.10.2019)

17. Типовые положения в области социального обеспечения для Южного Кавказского региона. - Страсбург, 2002. - 58 с.

18. Федеральный Закон РФ «О страховых пенсиях». - Новосибирск, Норматика, 2018. - 68 с.

19. Чиркин В.Е. Конституционное право зарубежных стран. - М.: Норма, 2010. - 608 с.

20. Эстель Джеймс. Новые системы пенсионного обеспечения в старости: эксперименты, опыт и нерешенные вопросы. [Электронный ресурс]. Режим доступа: http://info.worldbank.orq/etools/docs/libraru/77186/november2003/readinqs/newsustemsrus.doc. (дата обращения: 15.10.2019)

21. URL: https://2019-god.com/tablica-pensionnogo-vozrasta-s-2019-godavrossii (дата обращения: 17.10.2019)

**Мустафазаде А.И.,**
**Бахшиева Н.А.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.90-101**
**УДК 349.3**

## Перспективы совершенствования пенсионного законодательства

**Аннотация**: Рассматриваются перспективы совершенствования действующего пенсионного законодательства Азербайджанской Республики. Автор продолжает изучать существующие проблемы с выходом на пенсию и предлагает усовершенствовать пенсионное законодательство. Эти предложения в основном основаны на законодательной базе пенсионного возраста, системе негосударственных гарантий, минимальной заработанной платой трудовой пенсии до прожиточного минимума и т. д.

**Ключевые слова**: право; пенсия; возраст; страхование; государство; право.

### Библиография

1. Концепция реформы пенсионной системы в Азербайджанской Республике на 2014-2020 годы, утвержденная Указом Президента № 827 от 4 ноября 2014 года [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/28572 (дата обращения: 15.10.2019) (на азерб. яз.).

2. Байрамов Ш.Б. Правовые отношения социального обеспечения. - Баку, Адильоглы, 2009. - 144 с. (на азерб. яз.).

3. Закон Азербайджанской Республики «О трудовых пенсиях» [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/11566 (дата обращения: 15.10.2019) (на азерб. яз.).

4. Алиев М.Н. Право социального обеспечения: учебник. - Баку, Адильоглы, 2007. - 464 с. (на азерб. яз.).

5. Алиев М.Н. Перспективы формирования и развития пенсионной системы в Азербайджанской Республике (правовые проблемы). - Баку, Изд-во БГУ, 2003. - 432 с. (на азерб. яз.).

6. Алиев М.Н. Пенсии по возрасту: современное состояние, правовые проблемы, перспективы развития. - Баку, Изд-во БГУ, 2003. - 242 с. (на азерб. яз.)

♦ **Мустафазаде Айтен Инглаб кызы –** доктор юридических наук, профессор, директор Института права и прав человека НАНА, Азербайджан. E-mail: info@huquq.org.az

**Бахшиева Нармин Анвер кызы –** доктор философии по праву, ведущий научный сотрудник отдела «Гражданское право, гражданский процесс и социально-экономические права» Института права и прав человека НАНА, преподаватель кафедры «Гражданское право» Бакинского государственного университета. Азербайджан. E-mail: info@huquq.org.az

7. Муршудов Р.И. Научно-практический комментарий к Закону Азербайджанской Республики «О трудовых пенсиях». Часть I (ст.ст. 1-20). - Баку, Аврора, 2018. - 380 с. (на азерб. яз.).

8. Андреев В.С. Право социального обеспечения в СССР. - М.: Юридическая литература, 1987. - 306 с.

9. Захаров М.Л., Тучкова Э.Г. Право социального обеспечения в России. - М.: БЕК, 2009. - 574 с.

10. Захаров М.Л., Тучкова Э.Г, Савостьянова В.Б. Пенсионный кодекс Российской Федерации. Проект. - М.: Р. Валент, 2008. - 206 с.

11. Закон о пенсионном обеспечении от 13 января 2017 года. Закон Республики Беларусь. [Электронный ресурс]. Режим доступа: http://soczaschita-volkovysk.gov.bu/ index.php/ru/otdel-pensiy-i-posobiy/doku mentasiya/555-закон (дата обращения: 16.10.2019).

12. Мачульская Е.Е. Право социального обеспечения. Перспективы развития. - М.: Книжный мир, 2001. - 210 с.

13. Мачульская Е.Е. Право социального обеспечения. - М.: Юрайт, 2012. - 504 с.

14. Пенсионный возраст [Электронный ресурс]. Режим доступа: https://ru.wikedia.orq/wiki (дата обращения: 15.10.2019).

15. Право социального обеспечения: учебник / В.Ш. Шайхатдинов. - М.: Юстиция, 2018. - 551 с.

16. Третьякова Г. Что может решить проблему пенсионного обеспечения в Украине? [Электронный ресурс]. Режим доступа: http://forinsuer/com/ publie/08/02/25/3395 (дата обращения: 17.10.2019).

17. Типовые положения в области социального обеспечения для Южного Кавказского региона. - Страсбург, 2002, 58 с.

18. Федеральный Закон РФ «О страховых пенсиях». - Новосибирск, Норматика, 2018. - 68 с.

19. Чиркин В.Е. Конституционное право зарубежных стран. - М.: Норма, 2010. - 608 с.

20. Эстель Джеймс. Новые системы пенсионного обеспечения в старости: эксперименты, опыт и нерешенные вопросы. [Электронный ресурс]. Режим доступа: http://info.worldbank.orq/etools/docs/libraru/77186/november2003/ readinqs/newsustemsrus.doc. (дата обращения: 15.10.2019)

21. URL: https://2019-god.com/tablica-pensionnogo-vozrasta-s-2019-godavrossii (дата обращения: 17.10.2019)